*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 72-75*
*https://doi.org/10.59849/2663-4406.2024.1.72*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

*Maarifçi realizm dövrü*

## Firidun bəy Köçərlinin yaradıcılığında Qarabağ mühiti

**Solmaz Həyatova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Azərbaycan tarixində elə adlar, şəxsiyyətlər, hadisələr vardır ki, biz onları hər an diqqət mərkəzində saxlamalı, xatırlamalı, müasir ədəbiyyatımızın örnəkləri kimi qiymətləndirməyi bacarmalıyıq.
Azərbaycanın məşhur, görkəmli ədəbiyyatşünas alimi, böyük müəllim Firudin bəy Köçərli Əhmədağa oğlu 1863-cü ildə yanvar ayının 26-da Şuşada anadan olubdur və uşaqlıq illərini də orada keçirmişdir. Firudin bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixində ədəbiyyat tarixçisi kimi tanınan ən görkəmli simalardan biridir. Onun fəaliyyətinin əsasını Azərbaycan ədəbiyyatını araşdırmaq təşkil edir. Firudin bəy Köçərli ədəbiyyatımızın inkişafına çox böyük təsir göstərmişdir.
Tədqiqatçı Qarabağ şairlərindən Molla Pənah Vaqifi, Qasım bəy Zakiri, Xurşudbanu Natəvan, Fatimə xanım Kəminə, Abdulla bəy Asi, Hacı Mirhəmzə Əfəndi Nigari, Mirzə Ələsgər Növrəsin həyat və yaradıcılıqları haqqında geniş məlumat vermişdir.
**Açar sözlər:** şəxsiyyət, müasir, ədəbiyyat tərcümə, publisistika, tənqid

**Məqalə tarixçəsi:** göndərilib – 12.03.2024; qəbul edilib – 27.03.2024

## Karabakh evironment in the creative work of Firidun Bey Kocharli

**Solmaz Heyatova**
Doctor of Philosophy in Philology, associate professor
Institute of Literature named after Nizami Ganvaji of ANAS

**Abstract.** There are names, personalities, and events in the history of Azerbaijan that we should always keep in the spotlight, remember, and are able to appreciate as examples of our modern literature.
Firudin Bey Kocharli Ahmadagha, the famous and prominent scholar of literature and great teacher of Azerbaijan, was born in Shusha on January 26, 1863 and spent his childhood there. Firudin Bey Kocharli is one of the most prominent figures known as a literary historian in the history of Azerbaijani literature. The basis of his activity is the study of Azerbaijani literature. Firudin Bey Kocharli had a great influence on the development of our literature.
The researcher gave extensive information about the life and works of Karabakh poets Molla Panah Vagif, Gasim bey Zakir, Khurshudbanu Natavan, Fatima khanum Kamina, Abdulla bey Asi, Haji Mirhamza Efendi Nigari, Mirza Alasgar Novres.
**Keywords:** personality, contemporary, literary translation, journalism, criticism





**Article history:** received – 12.03.2024; accepted – 27.03.2024

### Giriş / *Introduction*

Azərbaycan tarixində elə adlar, şəxsiyyətlər, hadisələr vardır ki, biz onları hər an diqqət mərkəzində saxlamalı, xatırlamalı, müasir ədəbiyyatımızın örnəkləri kimi qiymətləndirməyi bacarmalıyıq. Azərbaycanın məşhur ədəbiyyatşünas alimi, tədqiqatçı, böyük müəllim Firidun bəy Əhmədağa oğlu Köçərli 1863-cü il yanvar ayının 26-da Şuşada doğulmuş və uşaqlıq illərini də orada keçirmişdir. Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixində ədəbiyyat tarixçisi kimi tanınan ən görkəmli simalardan biridir. Onun fəaliyyətinin əsasını Azərbaycan ədəbiyyatının tarixini tədqiq etmək təşkil edir. O, özünün çoxcəhətli fəaliyyəti – pedaqoji, tənqidçilik, tərcüməçilik, publisistik fəaliyyəti nəticəsində kamil bir ədəbiyyat tarixçisi səviyyəsinə yüksələ bilmişdir. Azərbaycan ədəbiyyatı tarixində dərin iz qoyan Firidun bəy Köçərlinin əsərləri Azərbaycan ədəbi ənənəsinin inkişafı və tarixi ilə maraqlanan hər kəs üçün mühüm mənbə olmaqda davam edir.

### Əsas hissə / *Main part*

F.Köçərli Azərbaycan ədəbiyyatı tarixində nəzəriyyəçi və tənqidçi kimi özünəməxsus yer tutur. “Ədəbiyyat nədir?” sualına Köçərli belə cavab verirdi: “Ədəbiyyat iki qisimdir: bir qism ağızda söylənilən nağıl hekayələrdən, cürbəcür nəğmələrdən, aşıq sözlərindən, məsəllərdən, tapmacalardan, yanıltmaclardan, ağıcı sözlərdən, bayatılardan ibarətdir. Bu qisim ədəbiyyata, ədəbiyyatı – lisani və yaxud el ədəbiyyatı deyilir. İkinci qisim ədəbiyyat üdəba və şüəranın, üləma və hükamanın asari – qələmiyyələrindən vücuda gələn təhrizat və təsnifatdan ibarətdir ki, bunlar gah nəsr ilə yazılmış olsun, gah ülum və fünuna dair olsun və gah əxlaq və ətvardan, şeir və qəzəliyyatdan bəhs eləsin. Hər iki qisim ədəbiyyatın bünövrəsi və təhyəgahı sözdür. Söz olmasaydı, əlbəttə, ədəbiyyat dəxi olmazdı” [1, s.71].

Köçərli sözün qiymətini uca tutmağa çağırır və bu münasibətlə Füzulinin “Söz” rədifli qəzəlini yüksək qiymətləndirirdi.

Tədqiqatçı Qarabağ şairlərindən Molla Pənah Vaqifin, Qasım bəy Zakirin, Xurşidbanu Natəvanın, Fatimə xanım Kəminənin, Abdulla bəy Asinin, Hacı Mirhəmzə Əfəndi Nigarinin, Mirzə Əliəsgər Növrəsin həyat və yaradıcılıqları haqqında geniş məlumat vermişdir.

F.Köçərli Vaqifin Azərbaycan dilində yazmağını təqdir etmişdir. Göstərmişdir ki, Vaqif gözəllik babında və dilbər vəzifində əvəzsiz sənət nümunələri yaratmışdır. Tədqiqatçı Vaqifin gözəlliyə həsr etdiyi şeirləri şərti olaraq qruplaşdırır. “Gözlərin vəsfində”, “Zülfün vəsfində”, “Ayrılıqdan şikayət”, “Sevgili yarın fəraqında badi-səbadan əhval” deyə tədqiqatçı bir neçə qrup şeir göstərir və bunlara aid nümunələr verir. Məsələn, o, şairin “gözlərin vəsfində” yazdığı şeirlərə nümunə üçün aşağıdakı parçanı nümayiş etdirir:

*Kaman daş altında, al yanaq üstə*
*Nə xoş xumarlanır məstanə gözlər.*
*Sürməli kiprikdən oxlar çəkilib,*
*Eyləyib bağrımı nişanə gözlər.*

*Qəmzə peykanilə tökdü qanımı,*
*Xətalara saldı din-imanımı*
*Əyri durdu, süzgün baxdı, canımı*
*Aldı o şux gözlər, amma nə gözlər* [1, s.191].

F.Köçərli Vaqifin şeirlərində təbiilik, sadəlik, səmimiyyət olduğunu göstərmiş, onu min bir ahənglə "ötən bülbül" adlandırmışdır.

Tədqiqatçı Vaqifin Azərbaycan dilində yazmağını təqdir etmişdir. O yazır: "Milli şairlərimizdən onun kimi sadə və açıq lisanda və ana dilimizin şivəsində şeir və qəzəl yazan az olubdur. Müasirləri … onun kimi mühəssənatlı gözəl və açıq kəlam söyləməklə aciz qalıblar" [1, s.153].

Vaqifin yaradıcılığını dərindən tədqiq edən F.Köçərli belə bir nəticəyə gəlir ki, "Molla Pənah Vaqifi Qafqasiyada vücuda gələn şairlərin babası və ustadı adlandırmağa haqqı vardır". Vaqifin əsl adı Pənahdır, Vaqif isə onun təxəllüsüdür ki, mənası – bilikli idi və hər şey haqqında məlumatı olan deməkdir. Doğrudan da mübaliğəsiz demək olar ki, Molla Pənah bilikli və öz zəmanəsinin ən alim adamı hesab olunurdu. Elə buna görə də sonralar onun haqqında bir zərbi-məsəl də yaranmışdır ki, "Hər oxuyan Molla Pənah olmaz".

Qarabağ Azərbaycan şairlərinin parnasıdır və yüksək ilhamlı şairlərin yuvası Şuşa dağlarının zirvəsindədir. Bu zirvələr içərisində ən birinci və görkəmli yeri, sözsüz ki, Qasım bəy Zakir tutur. Zakir Şuşa şəhərinin əsasını qoymuş Pənah xanın nəslindəndir. O, Şuşa şəhərində anadan olmuş və təhsilini də oradakı yerli məktəblərdən birində almışdır.

Təhsilini qurtardıqdan sonra o, Şuşa şəhərindən köçüb, öz malikanəsi olan Xındırıstan kəndinə gəlmiş və orada təsərrüfatla məşğul olmuşdur. Keçən əsrin 60-cı illərində Zakirin düşmənləri onu, qardaşı oğlu məşhur qaçaq Behbudu gizlətməkdə təqsirləndirirlər. Bu məsələ ilə bağlı böhtan və hər cür qanundankənar bir hal olmasına baxmayaraq, inzibati idarə nümayəndələri onun düşmənlərinin təsiri altında çalışdıqlarından, Zakirin özünü, həmçinin oğlu Nəcəfqulu bəyi və qardaşı oğlu İskəndər bəyi Sibirə sürgün olunmağa məhkum edirlər. Şairin ailəsini Şuşa şəhəri həbsxanasına salmış və bütün əmlakını müsadirə etmişdilər. Bu vəziyyət şairin bütün qəlbini sarsıtmışdı. Bu münasibətlə o öz himayəçisi və dostu, Bakı qubernatoru Kolubyakinə aşağıdakı sözləri yazmışdı:

*Səndən sonra, ey taci-sər başıma*
*Gərdişi-zəmanə nələr gətirdi.*
*İki bimürüvvət ittifaq edib,*
*Vilayətə yüz şurü şər gətirdi.*
*Qaçaqlıq binası edən tək Behbud,*
*Pişnihad etdim öz ərzimi zud.*
*Tərəfkirlik oldu axırda, nə sud.*
*Mənim doğulduğum zərər gətirdi.*

Sonra Zakir məktubunda ondan xahiş edir ki, bu bədbəxt işdə ona kömək etsin. Kolubyakinin, Mirzə Fətəli Axundovun və şairi şəxsən tanıyan bəzi nüfuzlu gürcü knyazlarının sayəsində Zakiri tezliklə həbsxanadan azad edirlər. O, Bakıda cəmi üç ay həbsxanada qalmışdır. Bakıdan öz vətəninə qayıdan kimi, Zakirin uşaqlarını da tezliklə həbsdən azad edirlər. Zakir ona yalandan böhtan atanları öz əsərlərində elə tənqid atəşinə tutub biabır etmişdi ki, onun vurduğu bu damğa çətin ki, Qarabağda unudula bilsin.

"Qafqaz qitəsinin Şirazi mənziləsində olan [2, s.153] Şuşa şəhərində anadan olan X.Natəvanın təvəllüd tarixi haqqında fərqli fikirlər var. X.Natəvan haqqında sağlığında məlumat verən M.Nəvvab onun anadanolma tarixini bildirməsə də, aşağıdakıları qeyd edir: "Xurşudbanu bəyim rəhmətlik Mehdiqulu xan İbrahimxəlil xan ibn Pənah xan Cavanşirin qızıdır. Qarabağın Şuşa şəhərində anadan olubdur… Ləqəbi Natəvandır" [3, s.181].

Təbii ki, Natəvan bir şair olaraq XX əsr Qarabağ ədəbi mühitinin, xüsusilə ədəbi məclislər dövrünün yetirməsidir. Lakin onu X.Natəvan səviyyəsinə qaldıran qan yaddaşından, əcdadlarından gələn şairlik təbi, zəngin mütaliə və özünün fitri istedadıdır.

Hesab edirik ki, X.Natəvanın ictimai xadim, mötəbər və böyük nüfuz sahibi olan el anası,





gözəl şair və rəssam kimi yetişməsində onun nəsil şəcərəsinin və qan qohumları olan şairlərin danılmaz rolu olmuşdur.

"Məclisi-üns"un hamısı, Şuşanın abadlaşdırılmasında misilsiz xidmətləri olan X.Natəvanın ədəbi irsi sağlığından başlayaraq günümüzə qədər diqqətdən yayınmamış, M.Nəvvab, F.Köçərli, Ə.Müznib, F.Qasımzadə, F.Seyidov, V.Məmmədov, İslam Qəribli və başqa müəlliflər onun əsərlərinin toplanması və çapı sahəsində əhəmiyyətli işlər görmüş, yaradıcılığı barədə qiymətli fikirlər söyləmişlər.

### Nəticə / *Conclusion*

Azərbaycanın ədəbiyyatı tarixində ədəbiyyat tarixçisi kimi tanınan Firidun bəy Köçərlinin yaradıcılığında Qarabağ mühiti əsas mövzulardan biridir və onun əsərlərində dərin iz buraxmışdır. Zəngin tarixə və mədəni irsə malik olan Qarabağın təbiəti, tarixi, mədəniyyəti və sosial həyatı Köçərlinin yazılarında geniş şəkildə təsvir olunmuşdur.

Qarabağda anadan olduğu və buranın həyatını, mühitini yaxşı bilən Firudin bəy Köçərli şair və yazıçıları haqqında publisistik əsərlərini yazmışdır. Köçərlinin əsərləri Qarabağ mövzusunu tarixi və ədəbi kontekstdə ön plana çıxararaq, Azərbaycan ədəbiyyatına əhəmiyyətli töhfələr vermişdir.

### Ədəbiyyat / *References*

1. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. – Bakı: Elm, – 1978, – c.1, – s.71.
2. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. – Bakı: Elm, – 1981, – c.2, – s.153.
3. Mir Möhsün Nəvvab. Təzkiye Nəvvab. – Bakı: Elm, – 2018, – s.181.

## Карабахская среда в творчестве Фиридун бека Кочарли

**Солмаз Хаятова**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА

**Резюме.** В истории Азербайджана есть имена, личности и события, которые мы должны всегда держать в центре внимания, помнить и уметь ценить как образцы нашей современной литературы.
Фиридун бек Кочарлы Ахмадага, известный и выдающийся ученый-литературовед, великий педагог Азербайджана, родился в Шуше 26 января 1863 года и провел там свое детство. Фирудин бек Кочарлы – одна из самых выдающихся фигур, известных как историк литературы, в истории азербайджанской литературы. Основой его деятельности является изучение азербайджанской литературы. Фиридун бек Кочерли оказал большое влияние на развитие нашей литературы.
Исследователь дал обширные сведения о жизни и творчестве карабахских поэтов Молла Панаха Вагифа, Гасым бека Закира, Хуршудбану Натаван, Фатима ханум Камина, Абдулла бека Аси, Гаджи Мирхамзы Эфенди Нигари, Мирзы Алескера Новрес.
**Ключевые слова:** личность, современник, художественный перевод, публицистика, критика